1_Layout 1 29.06.2020 11:12 Page 1

Daxili Qoşunların üzərinə çox böyük vəzifələr düşür və bunlar uğurla yerinə yetirilir.

İlham ƏLİYEV

ƏSGƏR

№ 12 (578)

30 iyun
2020-ci il

Qəzet 1992-ci il dekabrın 16-dan nəşr olunur.

Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının HƏRBİ VƏTƏNPƏRVƏRLİK qəzeti

Azərbaycan Silahlı Qüvvələrinin yaranmasından 102 il ötdü

Azərbaycan Silahlı Qüvvələrinin yaranmasının 102 ili tamam oldu.

1918-ci il iyunun 26-da Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurasının qərarı ilə ilk müntəzəm hərbi hissə – əlahiddə Azərbaycan korpusu yaradılıb. Həmin il mayın 28-də qəbul edilmiş "İstiqlal bəyannaməsi"ndə qeyd edilirdi ki, Azərbaycan özünü xarici müdaxilələrdən müdafiə etmək, daxili düşmən qüvvələrini zərərsizləşdirmək üçün nizami orduya malik olmalı, özünün silahlı qüvvələrini yaratmalıdır. Hökumət tərəfindən 25 min nəfərlik ordu yaratmaq vəzifəsi irəli sürüldü. Avqustun 1-də Azərbaycanın Hərb Nazirliyi təsis olundu, ilk müdafiə naziri isə Xosrov bəy Sultanov təyin edildi.

Qısa müddətdə Milli Ordu Qafqaz İslam Ordusu ilə birlikdə Bakını və ətraf qəzaları erməni-bolşevik işğalından azad edə bilmişdi. 1920-ci ildə Azərbaycan sovet işğalına məruz qaldıqdan sonra hərbi nazirlik ləğv olundu, ordumuzun 15 generalı bolşeviklər tərəfindən güllələndi.

1991-ci ildə dövlət müstəqilliyinin bərpasından sonra Azərbaycan Ordusunun yaradılması haqqında qərar qəbul edildi. Ulu Öndər Heydər Əliyevin 1998-ci il 22 may tarixli Fərmanına əsasən, 26 iyun Silahlı Qüvvələr Günü elan olundu. 2011-ci il iyunun 26-da Bakıda Silahlı Qüvvələrin Ali Baş Komandanı Prezident İlham Əliyevin iştirakı ilə Silahlı Qüvvələr Günü və müstəqilliyin bərpasının 20 illiyi münasibətilə müasir Azərbaycan Ordusunun hərbi paradı keçirildi. Daha sonra hərbi parad 2013-cü ildə Silahlı Qüvvələrin yaranmasının 95 illiyinə həsr edildi. Növbəti parad isə 2018-ci ildə Ordumuzun 100 illiyinə həsr olundu.

Bu möhtəşəm paradda Müdafiə, Daxili İşlər, Fövqəladə Hallar nazirliklərinin, Dövlət Təhlükəsizliyi, Dövlət Sərhəd və Xüsusi Dövlət Mühafizə xidmətlərinin, eləcə də Türkiyə Respublikası Silahlı Qüvvələrinin parad heyətindən ibarət 4 min nəfərədək şəxsi heyəti iştirak edib.

Bütün bunlar onu göstərdi ki, son illər ərzində Azərbaycan hərbi potensialını xeyli artırıb. Ölkəmizə ən müasir silah-sursat, texnika, avadanlıq gətirilib. Hazırda maddi-texniki təchizat və döyüş qabiliyyəti baxımından Azərbaycan Silahlı Qüvvələri Cənubi Qafqazın ən güclü ordusudur.

Azərbaycan Ordusu bu gücünü 2016-cı ilin aprel ayında bir daha sübut etdi. Aprelin 2-də Ermənistan ordusunun təxribatlarına cavab olaraq, Azərbaycan Ordusu sürətli əks-hücum əməliyyatı ilə düşməni ağır məğlubiyyətə uğradaraq, Füzuli, Cəbrayıl və Ağdərə rayonlarının işğal altındakı ərazilərinin 2000 hektardan çox hissəsini azad etdi. Həmçinin, minlərlə hektar ərazi Azərbaycan Ordusunun tam nəzarətinə keçdi. Azərbaycan Ordusu dördgünlük Aprel döyüşləri ilə xalqımıza yenidən qələbə sevinci yaşatdı.

Ermənistan silahlı qüvvələri bu döyüşlərdə böyük itkilər verdi. Düşmənin 320-dən artıq hərbçisi məhv edildi, 500-dən artıq hərbi qulluqçusu yaralandı, 30-dək tankı və digər zirehli texnikası, 25-dən artıq artilleriya qurğusu sıradan çıxarıldı, Madagiz yaşayış məntəqəsində yerləşən qərargahı və əsas hərbi hissələri məhv edildi. Ağdərə-Madagiz, Cəbrayıl istiqamətindəki yolların nəzarətdə saxlanılmasına imkan verən strateji mövqelər ələ keçirildi.

Ali Baş Komandanın daimi nəzarəti, diqqət və qayğısı, eyni zamanda, Müdafiə Nazirliyi rəhbərliyinin düzgün qurduğu fəaliyyət nəticəsində Ordumuzun üzüağ çıxdığı bu əməliyyatın ən böyük nəticələrindən biri odur ki, Azərbaycan Ordusu mənəvi-psixoloji, döyüş ruhu, sosial, texniki təchizat, silah-sursat, peşəkarlıq baxımından Ermənistan ordusunu nə qədər qabaqladığını ortaya qoydu və düşmən də bu üstünlüyü tam anladı.

Azərbaycan Ordusunun daha bir uğuru Aprel döyüşlərindən iki il sonra - 2018-ci ilin mayında Günnüt zəfəri ilə qazanıldı. Bu uğurlu əməliyyat nəticəsində Naxçıvan Muxtar Respublikasının 11 min hektardan artıq ərazisi və Şərur rayonunun Günnüt kəndi düşməndən azad edilərək dövlət sərhədi boyunca əlverişli mövqelər Azərbaycan Ordusunun nəzarəti altına keçdi.

Bir sözlə, ölkəmizdə ordu quruculuğu uğurla davam edir.

Prezident İlham Əliyevin Sərəncamı ilə Azərbaycanda hərbi sənaye kompleksi də yaradılıb. Azərbaycanda mindən çox hərbi təyinatlı məhsul istehsal edilir. Dünyanın aparıcı beynəlxalq sərgilərində Azərbaycanın hərbi məhsulları nümayiş olunur.

Azərbaycan Ordusu beynəlxalq terrorizmə qarşı mübarizədə fəallıq göstərir. Ölkənin Sülhməramlı Qüvvələri Əfqanıstandakı koalisiya əməliyyatlarında iştirak edir.

Bunu da demək yerinə düşər ki, Silahlı Qüvvələrin Ali Baş Komandanı, Prezident İlham Əliyev Azərbaycan Ordusuna xüsusi diqqət və qayğı göstərir. Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyev Silahlı Qüvvələrin şəxsi heyətinin sosial-məişət şəraitinin yaxşılaşdırılması ilə əlaqədar göstərişlər verir, hərbçilərimizin göstərdikləri igidlikləri daim yüksək qiymətləndirir.

Bu gün Ali Baş Komandanın diqqət və qayğısı nəticəsində gündən-günə hərbi qüdrətini artıran Azərbaycan Ordusu işğal altındakı torpaqlarımızı azad etmək, düşmənə sarsıdıcı zərbə vurmaq üçün tam hazırdır. Xalqımız Ordumuzun hərbi qüdrətinə və Azərbaycan əsgərinin bəxş edəcəyi qələbə sevincinin uzaqda olmadığına qəti şəkildə inanır.

AZƏRTAC

DAXİLİ QOŞUNLARIN ALİ HƏRBİ MƏKTƏBİNDƏ NÖVBƏTİ BURAXILIŞ

İyunun 20-də Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının Ali Hərbi Məktəbinin məzunlarının üçüncü buraxılışına həsr olunmuş təntənəli mərasim keçirilib.

Əvvəlcə Ali Hərbi Məktəbin Döyüş Bayrağı sıra meydanına gətirilib. Sonra Ümummilli Lider Heydər Əliyevin və Vətənimizin suverenliyi, ərazi bütövlüyü uğrunda şəhid olmuş, xidməti-döyüş tapşırıqlarının yerinə yetirilməsi zamanı canlarından keçmiş hərbi qulluqçuların əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Azərbaycanın Dövlət Himni səsləndirilib.

Nazir müavini-Daxili Qoşunların komandanı general-leytenant Şahin Məmmədov təntənəli mərasimdə çıxış edərək Ali Hərbi Məktəbin üçüncü buraxılışının qoşunların həyatında ən əlamətdar günlərdən biri olduğunu bildirib.

O deyib ki, milli hərbi kadrların hazırlanması istiqamətində təməli Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulmuş siyasəti bu gün Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev uğurla davam etdirməkdədir. Məhz Daxili Qoşunların kadr potensialının daha da gücləndirilməsi məqsədilə dövlət başçısının 25 fevral 2011-ci il tarixli Sərəncamı ilə Orta İxtisas Hərbi Məktəbinin bazasında Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının Ali Hərbi Məktəbi yaradılıb.

Qeyd olunub ki, ölkəmizdə aparılan quruculuq işləri və islahatlar Daxili Qoşunların hərbi hissələri ilə bərabər Ali Hərbi Məktəbin də inkişafına təkan verib, müasir tələblərə cavab verən kadr potensialı formalaşıb, zəruri maddi-texniki tədris bazası yaradılıb. Fəaliyyətin müasir standartlara uyğun təşkili məqsədilə hal-hazırda Ali Hərbi Məktəbdə kompüterləşdirilərək, zəruri texniki və əyani vasitələrlə tam təchiz olunmuş auditoriyalar, siniflər, fənn kabinetləri, təlim şəhərcikləri yaradılıb. Gələcəyin zabitlərinin intellektual səviyyəsinin yüksəldilməsində böyük əhəmiyyət kəsb edən kitabxana, xüsusi guşələr və xarici dil mərkəzi fəaliyyət göstərir.

Daxili Qoşunlar üçün yüksək ixtisaslı kadrların hazırlanmasında danılmaz roluna, təmənnasız yardımlarına görə qardaş Türkiyə Respublikasının Jandarma Qüvvələri Baş Komandanlığına, hərbi mütəxəssislərinə təşəkkürünü bildirən Daxili Qoşunların komandanı bu işdə digər ölkələrin də analoji təhsil müəssisələri ilə işgüzar əlaqələrin əhəmiyyətini qeyd edib.

Müstəqil Azərbaycanın qurucusu Ulu Öndər Heydər Əliyevin "Zabit peşəsi ağır peşədir. O, bir tərəfdən cəsarət, şəxsi mətanət, ikinci tərəfdən bilik, dərrakə, elm, təhsil, təcrübə tələb edir" - fikirlərini diqqətə çatdıran nazir müavini, bu baxımdan məktəbin rəhbərliyinin və pedaqoji kollektivin qarşısında çox mühüm vəzifələrin durduğunu vurğulayıb.

Məzunların həyatında yeni bir dövrün başlandığını nəzərə çatdıran general-leytenant Ş.Məmmədov onları əlamətdar hadisə münasibətilə təbrik edib, bu təhsil ocağında komandir peşəsinə yiyələnməklə gənc zabitlərin liderlik, cəsurluq, fədakarlıq, dürüstlük kimi keyfiyyətlər qazandıqlarını, peşələrini sevən, müasir düşüncəyə sahib zabitlər kimi Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin, Daxili İşlər naziri general-polkovnik Vilayət Eyvazovun dövlət və dövlətçilik naminə əmrlərini yerinə yetirməyə hər an hazır olacaqlarına, dövlətimiz tərəfindən göstərilən ali diqqət və qayğıya fədakar xidmətlərilə cavab verəcəklərinə əminliyini bildirib.

Daha sonra Ali Hərbi Məktəbi əla qiymətlərlə bitirmiş üç məzuna - Əkbər Misirov, Elxan Ələkbərov və Fuad Zahidova fərqlənmə diplomları və "leytenant" hərbi rütbələrinin paqonları təqdim edilib.

Gənc zabit Ə.Misirov "Yaş kötüyü"nə rəmzi xatirə lövhəsini vurub. Döyüş Bayrağı üçüncü kursun kursantlarına təhvil verilib. Ali Hərbi Məktəbin marşı ifa edilib. Sonda şəxsi heyət təntənəli marşla tribunanın qarşısından keçib.

Mətbuat xidməti

2_Layout 1 29.06.2020 12:02 Page 1

YÜKSƏK DÖYÜŞ HAZIRLIĞI VƏ MÖHKƏM HƏRBİ İNTİZAM HƏRBİ HİSSƏNİN ŞƏXSİ HEYƏTİNİN BAŞLICA AMALIDIR

Füsunkar təbiətilə insanları valeh edən Vətənimizin hər guşəsi öz əsrarəngizliyi, özünəməxsusluğu ilə seçilir. Bu mənada doğma Azərbaycanımızın cənub-şərqində yerləşən Lənkəran şəhəri spesifik iqlimi baxımından səciyyəvidir. İyun ayının 16-da məqsədli qrupun tərkibində Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının 25033 saylı hərbi hissəsində xidməti ezamiyyətdə olarkən bunun bir daha şahidi oldum. Əslində, hərbi hissə ilə ilk tanışlığım olduğuna görə məqsədim hissənin xidməti-döyüş fəaliyyəti barədə daha çox məlumatlı olmaq və "Əsgər" qəzeti üçün yeni materiallar toplamaq idi.

Hərbi hissə komandiri polkovnik Rüstəm Dəmirov şəxsi heyətin döyüş hazırlığının və mənəvi-psixoloji durumunun yüksəldilməsi üçün bölmə komandirlərinin funksional vəzifələrinin icrasında peşəkarlıq nümayiş etdirdiklərini nəzərimizə çatdırdı. Bildirdi ki, hərbi qulluqçularla keçirilən praktiki məşğələlərin real döyüş şəraitinə uyğun olmasını təmin etmək onların qarşısında duran prioritet məsələlərdən biridir: "Daxili Qoşunların tarixinə nəzər salsaq görərik ki, bu hərbi hissə erməni daşnaklarının ölkəmizə hərbi təcavüzünün gücləndiyi bir vaxtda formalaşmış və şəxsi heyət ağır döyüş əməliyyatlarında rəşadətlə vuruşaraq, ön cəbhədə qəhrəmanlıq nümunələri göstərmişdir. Ən çətin döyüş sınaqlarında hərbi qulluqçularımız öz cəsarəti ilə fərqlənmiş, hərbi anda sadiq qalmağı bacarmışlar".

Hərbi hissə komandiri əlavə olaraq, hissənin fəaliyyət göstərdiyi ötən müddət ərzində dislokasiya rayonunda ictimai təhlükəsizliyin təmin olunması, ictimai qaydaların qorunması üzrə hərbi qulluqçuların qarşıya qoyulan xüsusi tapşırıqları layiqincə yerinə yetirdiklərini qeyd etdi.

Döyüş hazırlığının yüksəldilməsi və hərbi intizamın gücləndirilməsi ilə yanaşı, hərbi hissədə abadlıq-quruculuq işlərinin paralel olaraq aparıldığının, şəxsi heyət üçün müasir tələblərə cavab verən xidmət və məişət şəraitinin yaradıldığının şahidi olduq.

DÖYÜŞ HAZIRLIĞINI YÜKSƏK SƏVİYYƏDƏ SAXLAYAN XÜSUSİ TƏYİNATLI BÖLMƏ - "GÜRZƏ"

Hərbi hissələrimizdə fəaliyyət göstərən xüsusi təyinatlıların silahlı cinayətkarların axtarılması, tutulması, zərərsizləşdirilməsi istiqamətində həyata keçirdikləri xidməti-döyüş fəaliyyəti təqdirəlayiqdir.

Hərbi hissənin "Gürzə" şərti adı verilmiş xüsusi təyinatlı dəstəsinin komandirinin vəzifəsini müvəqqəti icra edən kapitan Taleh Rüstəmovun sözlərinə görə, bölmə hər an qarşıya çıxa biləcək qəfləti tapşırıqları uğurla yerinə yetirməyə qadirdir. Artıq 10 ildir ki, hərbi xidmətdə olan zabitimiz vəzifə borclarından irəli gələn tələblərdən danışdı, hava şəraitindən asılı olmayaraq, şəxsi heyətlə təlim-məşq proseslərinin davamlı olaraq keçirildiyini bildirdi. Qeyd etdi ki, şəxsi heyətin döyüş təlimi Daxili İşlər nazirinin müavini-Daxili Qoşunların komandanının müvafiq Direktivinin tələblərinə əsasən təşkil edilir. Əsas diqqət atəş və fiziki hazırlıqları ilə yanaşı, xüsusi-taktiki hazırlıq, hərbi topoqrafiya, həmlə-desant hazırlığı, tək əsgərin döyüş təlimi, hərbi-tibbi hazırlıq, hərbi mühəndis hazırlığı və mütəxəssislərlə ixtisas hazırlığı üzrə məşğələlərə yetirilir. Məşğələlərin hərbi qulluqçular tərəfindən dərindən mənimsənilməsi məqsədilə mütəmadi olaraq çoxşaxəli tədbirlər görülür. Hərbi qulluqçuların təlim-tərbiyəsi, mənəvi-psixoloji hazırlığı təkmilləşdirilir.

Xüsusi təyinatlı bölmənin fəaliyyəti hərbi hissənin digər aidiyyəti bölmələrindən öz spesifikliyi ilə fərqlənir. Əsas etibarilə çətin iqlim şəraitində təlimlərin təşkil olunub keçirilməsi diqqət mərkəzində saxlanılır. Bu baxımdan təlimlər zamanı bölmənin komandir heyəti tərəfindən şəxsi heyətin təhkim olunmuş silaha mükəmməl yiyələnməsi, əlbəyaxa döyüş fəndlərinin öyrənilməsi, müxtəlif şəraitlərdə xidməti-döyüş tapşırıqlarının yerinə yetirilməsi zamanı döyüş və digər texnikanın bacarıqla tətbiq edilməsi, yüksək nizam-intizama və sayıqlığa nail olunması, fiziki və psixoloji gərginliyə müvəffəqiyyətlə tab gətirilməsinə xüsusi fikir verilir. Ekstremal şəraitlərdə dayanıqlığın, mərdliyin və şücaətin nümayiş etdirilməsi, fəal və qətiyyətli fəaliyyətin göstərilməsi də xüsusilə diqqət mərkəzində saxlanılır.

Bölmənin istifadəsində olan döyüş texnikasından bacarıqla və peşəkarcasına istifadə edə bilməsi üçün müxtəlif ərazi relyefində və hava şəraitində məşğələlər keçirilir. Fiziki hazırlıq məşğələlərinin keçirilməsində yarımqrup komandiri kiçik gizir Anar Məmmədov bölmə komandirinə yaxından köməklik göstərir.

Təlimin əsas mahiyyətinin verilmiş döyüş tapşırığının müvəffəqiyyətlə yerinə yetirilməsi olduğunu nəzərimizə çatdıran kapitan T.Rüstəmov praktiki məşğələlər zamanı hərbi qulluqçulara xüsusi metod və vasitələr öyrədildiyini, cinayətkar dəstələrin zərərsizləşdirilməsi və tərksilah edilməsi üzrə praktiki fəaliyyətə üstünlük verildiyini də qeyd etməyi unutmadı. Bölmənin intizamlı və fəal hərbi qulluqçularından keçən ilin yekun yoxlamasının nəticələrinə görə fərqlənərək "əla" qiymət alan baş çavuş Kənan Kərimov, çavuş Famil Məmmədov və məşğələlərin keçirilməsində qrup komandirinə yaxından köməklik göstərən çavuş Mehrac Qarayevin adlarını çəkdi.

XÜSUSİ VASİTƏLƏRİN TƏTBİQİ BÖLMƏSİ QABAQCIL BÖLMƏLƏRDƏN BİRİ KİMİ

Hərbi hissənin yüksək döyüş hazırlığı və layiqli xidmətilə fərqlənən bölmələrindən biri polkovnik-leytenant Seymur Şahmuradovun komandiri olduğu xüsusi vasitələrin tətbiqi bölməsidir. Bölmələr arasında nümunəviliyi ilə fərqlənməsi, kütləvi tədbirlərdə fəallıq göstərilməsində dəstə komandiri polkovnik-leytenant S.Şahmuradovun, eləcə də kollektivin hər bir üzvünün rolu və zəhməti böyükdür. Yüksək döyüş hazırlığının qorunub saxlanılması üzrə əldə olunmuş nailiyyətlərdən bəhs edən dəstə komandiri bunu hərbi qulluqçuların lazımi hərbi biliklərə yiyələnməsi ilə əlaqələndirdi. Müvafiq tədris proqramlarına uyğun nəzəri və praktiki məşğələlərin keçirilməsi üçün hərbi hissədə hər bir şəraitin olduğunu söylədi.

Polkovnik-leytenant S.Şahmuradov ölkəmizdə karantin rejimi ilə bağlı olaraq cari ilin fevral ayının 26-dan bu günə kimi müvafiq göstərişə əsasən cənub bölgəsində yerləşən rayonların xəstəxanaları və karantin nəzarətinə götürülmüş istirahət mərkəzlərinin mühafizəsi üzrə xidmətə cəlb olunduqlarını nəzərimizə çatdırdı. Bu müddət ərzində polis əməkdaşları ilə birgə karantin qaydalarını pozan şəxslərə qanunvericiliklə bağlı müddəalar izah olunur.

Döyüş hazırlığının qorunub saxlanılmasında xüsusi vasitələrin tətbiqi dəstəsinin komandirinin müavini-qərargah rəisi mayor İsmayıl Fərmanovun əməyi danılmazdır. Peşəkar zabit kimi xarakterizə olunan mayor İ.Fərmanovun idarəetmə qabiliyyətinin yüksək olması və tələbkarlığı xüsusilə təqdirəlayiqdir.

Dəstə komandiri polkovnik-leytenant S.Şahmuradov həmçinin, baş leytenant Həmid Nəsirlinin komandiri olduğu xüsusi vasitələrin tətbiqi bölməsinin yüksək döyüş hazırlığı və nümunəvi xidmətilə fərqlənən qabaqcıl bölmə olduğunu bildirdi. Bölmə komandirinin fəaliyyətinə toxunaraq qeyd etdi ki, baş leytenant H.Nəsirlinin hərbi intizamın və kollektivçiliyin formalaşdırılmasında rolu böyükdür. O, təlimlərin real döyüş şəraitinə uyğun hazırlanmasında tələbkarlığı ilə seçilir.

HƏRBİ ŞƏHƏRCİYİN MÜDAFİƏ VƏ MÜHAFİZƏSİ UĞURLA HƏYATA KEÇİRİLİR

Cari ilin birinci yarımilində hərbi hissənin döyüş hazırlığını yüksək səviyyədə qoruyub saxlayan, habelə həvalə olunmuş tapşırıqları uğurla həyata keçirən bölüklərindən biri də komendant bölüyüdür. Bölük komandiri baş leytenant Ramin Abdullayev hərbi hissənin Döyüş Bayrağı, anbarları, avtomobil və zirehli texnika parkının mühafizə və müdafiəsini təmin etdiklərini bildirdi. Şəxsi heyətin hər zaman olduğu kimi, bu gün də döyüş tapşırıqlarının yerinə yetirilməsində yüksək peşəkarlıq nümayiş etdirdiyini sözlərinə əlavə etdi.

Döyüş hazırlığının qorunub saxlanılmasında hərbi şəhərciyin müdafiə və mühafizəsini təşkil edən qarovul xidmətinin üzərinə də böyük məsuliyyət düşür. Bu baxımdan komendant bölüyünün qarovul xidmətinə cəlb olunan hərbi qulluqçularında bir sıra vacib cəhətlərə xüsusi diqqət yetirilir. Əsgərlərin sağlamlığını, eyni zamanda, mənəvi-psixoloji durumunu əsas şərt hesab edən bölük komandiri digər lazımi keyfiyyətlərin keçirilən nəzəri məşğələlər və praktiki təlimlər zamanı aşılandığını bildirdi. Keçirilən məşğələlərin şəxsi heyətin bilik və bacarığının artırılmasına təkan verdiyini dedi. Həftəlik məşğələ cədvəlinə uyğun olaraq, hərbi qulluqçularla atəş hazırlığı, ixtisas hazırlığı, fiziki hazırlıq, ictimai-siyasi hazırlıq və Daxili Qoşunların taktikası məşğələləri keçirilir. Onun sözlərinə görə, təlim və məşğələlərdə kifayət qədər fiziki güc, eləcə də bilik əldə edən əsgər postda olarkən daha ayıq-sayıq, çevik olur ki, nəticə etibarilə tapşırılmış obyektin mühafizəsini qüsursuz olaraq yerinə yetirir.

Postların vaxtlı-vaxtında dəyişilməsilə yanaşı, silahın doldurulub-boşaldılması zamanı təhlükəsizlik qaydalarına ciddi riayət olunmasını daima diqqət mərkəzində saxlayır. Fəalların seçilməsi və təlimatlandırılması, qarovul xidmətinə çıxan hərbi qulluqçuların asudə vaxtlarının səmərəli təşkili: müxtəlif növ ədəbiyyatların, dövri mətbuatın mütaliə olunması, stolüstü oyunların oynanılması məsələsi diqqətdə saxlanılır. Xidmətin təşkilində bölüyün şəxsi heyəti həqiqətən də fəallıq nümayiş etdirir.

Vəzifələrin icrasında nailiyyət əldə etmiş hərbi qulluqçulardan taqım komandiri leytenant Ağasəməd Umudlu, baş çavuş Ağamirzə Hüseynov, qarovul rəisinin köməkçilərindən çavuş Səlim Ulubəyov, kiçik çavuş Murad Səfərov və qarovul nəfərlərindən əsgər Cavidan Quliyev və Heydər Əliyevin adlarını qeyd etmək olar.

baş leytenant
Nigar Ağayeva

3_Layout 1 29.06.2020 10:29 Page 1

POLİSİ SEVDİRƏN POLİSLƏR

Asim Vəliyev polis baş serjantıdır. Nərimanov Rayon Polis İdarəsinin post-patrul xidməti bölüyünün əməkdaşıdır. 2011-ci ildən daxili işlər orqanlarında xidmət edir. Səmimidir, ünsiyyətcildir. Əslində, belə də olmalıdır, çünki polis əməkdaşının etik davranış kodeksində yazılıb: "Vətəndaşlar sizi dövlət maraqlarının təmsilçisi, insanların konstitusion hüquqlarını və qanuni mənafelərini qoruyan, geniş dünyagörüşünə, yüksək intellektə, həmçinin, gözəl davranış mədəniyyətinə malik olan şəxsiyyət kimi qəbul etməlidir"…

Bütün bunlar öz yerində. Əgər o, bu peşəni seçibsə, onun bərkinə-boşuna düşməkdən, gecəli-gündüzlü xidmətdən, cinayətkarın bıçağına, gülləsinə tuş olmaqdan çəkinməyibsə, ötən illər ərzində insanların sevgisini, sayğısını qazanıbsa, deməli, içdiyi anda və polis adına sadiq Azərbaycan gənci, Vətən övladıdır.

Məqsədim onu tərif etmək deyil. O, polisdir, öz görəvini vicdanla yerinə yetirməlidir.

Operativ Qərargahın ölkə ərazisində 6 iyun saat 00:00-dan 8 iyun saat 06:00-dək Bakı, Sumqayıt, Gəncə, Lənkəran şəhərlərinin və Abşeron rayonunun ərazisində bütün iş, xidmət və ticarət sahələri üzrə fəaliyyət, eyni zamanda, ictimai nəqliyyatın və avtomobillərin hərəkətinin dayandırılması qərarından sonra maraqlı bir hadisəyə şahidlik etdim.

Bəlkə də polisdən "yanıqlı" olanlar "adi bir şeydir, bunca şişirtməyə nə ehtiyac var" deyib keçər, hələ üstəlik, məni tənqid atəşinə də tutarlar. Ancaq deməyə, təqdir etməyə, yaymağa ehtiyac var. Çünki polisi xalqın düşməni kimi qələmə verənlərə, hər gün onun ünvanına yalan, böhtan deyənlərə, "göz bəbəyimiz" kimi qoruduğumuz sabitliyimizi pozmaq istəyənlərə həddini bildirmək üçün gördüklərimizi, eşitdiklərimizi qələmə almalıyıq.

Xalq uğrunda canından keçən polisini yaxşı tanıyır. Diqqət edin, dünyanın onlarla ölkəsində irqi ayrı-seçkiliyə görə mitinqlər təşkil edilir. Azərbaycanda hələ indiyə kimi kimsə irqi ayrıseçkiliyə məruz qalmayıb. Etik davranış kodeksində polis əməkdaşına bunlar öyrədilir: "Milliyyətindən, cinsindən, irqindən, dinindən, əqidəsindən və cəmiyyətdə tutduğu mövqedən, siyasi mənsubiyyətindən, törədilmiş hüquqazidd əməldən və görüləcək qanuni adekvat tədbirdən asılı olmayaraq, siz heç kəsin qanunla qorunan konstitusion hüquqlarının pozulmasına yol verməməlisiniz"…

Günümüzün mənzərəsi budur ki, bu Torpaq ona Vətən deyəni hər zaman bağrına basıb, bu Millət uğrunda canından keçəni heç vaxt unutmayıb. Qarabağ uğrunda gedən döyüşlərdə tat, ləzgi, talış, yəhudi, udin, rus, lahıc və digər qeyri millətlərin şəhid olması bizi bir bayraq altında birləşdirən azərbaycançılıq ideologiyasına sadiqliyimiz, bu torpağa olan sevgimiz və Ulu Öndər siyasətinin təntənəsi idi.

Mətləbdən uzaqlaşmayım. Yaşadığım Nərimanov rayonunda polisin karantin rejimində xidmətini işıqlandırmaq üçün Qarabağ, Təbriz, Əliəşrəf Əlizadə küçələri ilə hərəkət etməyə başladım. Kimsə gözə dəymirdi. Yalnız Post-Patrul Xidməti avtomobillərində əhaliyə çağırış edilirdi. Uzaqdan gələn Post-Patrul Xidməti avtomobili yanımda saxladı. Məni tanıdılar…

Polis serjantı Asim Vəliyevin "qardaşım, sən bizə ünvanı de, gəlirik" deməsi diqqətimi çəkdi. Soruşdum. Düzü, mənə elə gəldi ki, hər hansı bir hadisə baş verib. Xəttin o başındakı şəxs ünvanı deyəndən sonra onda gördüm ki, DİN Daxili Qoşunların əməkdaşları avtomobildən ərzaq dolu torbaları düşürdülər. Deyilən ünvana yollandıq.

Məlum oldu ki, həmin şəxs Sabirabaddandır. Bakıda işləyir və kirayədə qalır. Pulu qurtarıb, ərzaq ala bilməyib. Bu iki gündə də bayıra çıxmaq qadağası onu təntidib. Bir dostuna bu barədə deyib. O da polislərə məlumat verib. Və ən maraqlısı, müsahibimin və onun ekipaj yoldaşlarının həmin şəxsə xidmət zamanı onlara verilən yeməyi gətirməsi idi…

Özləri də bilmədən diktafonu açıb "onda, belə çıxır ki, sizlər bu gün ac qalacaqsınız" sualını onlara verəndə "biz bilirik ki, nə vaxt getsək evimizdə qabağımıza isti yemək çəkəcəklər. Bir də ki, bir gün ac qalmaqla ölmərik. Əsas odur ki, həm Allahın, həm də bəndənin yanında üzümüz ağ olsun" cavabından sonra sağollaşıb getdilər. Bir xeyli arxalarınca baxdım və özümdən ixtiyarsız göz yaşlarım yanağım boyu süzüldü. Polis olmağımla bir daha qürur duydum və sıramızda belə oğulların çox olmasına sevindim.

Polis baş serjantı Asim Vəliyevin, polis serjantı İmran Məmmədovun, Daxili Qoşunların Biləcəridəki "N" saylı hərbi hissəsinin xüsusi təyinatlı dəstəsinin müddətdən artıq hərbi qulluqçuları - kiçik çavuşlar Eyniyev Vüsalın, Səfərli İdrisin insanpərvərliyindən təsirləndiyim duyğular məni uzun illər tərk etməyəcək. Yaxşını, doğrunu, haqq olanı, haqqı olanı yazmaq özü də Vətənə xidmətdir. Bu gün bizim həmrəyliyə ehtiyacımız var. Birliyimiz bizi bəlalardan qurtaracaq. Bir olmağımız bu Vətəni və xalqı xaricdə oturub söyənlərə göz dağı olacaq.

Hafiz Təmirov,
polis polkovnik-leytenantı

İSTEHKAMÇILARIN PEŞƏ VƏRDİŞLƏRİNİN TƏKMİLLƏŞDİRİLMƏSİ DİQQƏTDƏ SAXLANILIR

16073 saylı hərbi hissənin döyüş hazırlığının qorunub saxlanılmasında xüsusi əhəmiyyət kəsb edən bölmələrdən biri də xüsusi təyinatlı bölmənin istehkamçı yarımqrupudur. Yarımqrup komandiri-baş istehkamçı baş çavuş Kənan Kərimov 2010-cu ilin aprel ayından Daxili Qoşunların sıralarında xidmət edir. 2015-ci ilin fevral ayından hazırkı vəzifədədir. Hərbi hissə komandanlığı tərəfindən müsbət xarakterizə olunur. 2016-cı ilin dekabr ayında Türkiyə Respublikasında təşkil edilən iki-həftəlik kursda iştirak edib.

Baş çavuş K.Kərimovla söhbət zamanı bildirdi ki, kursda olduğu müddət ərzində mina və mərmilərin növləri, taktiki-texniki xüsusiyyətləri, onların sökülməsi və yığılması qaydaları öyrədilib. O, eyni zamanda, Azərbaycan Ərazilərinin Minalardan Təmizlənməsi üzrə Milli Agentliyin (ANAMA) təşkil etdiyi müxtəlif kurslarda da olub. Qazandığı bilik və bacarıqlar bu gün də ona qarşılaşdığı çətinliklərin aradan qaldırılmasında böyük köməklik göstərir.

İstehkamçı yarımqrupunun əsas vəzifələri təhkim olunmuş ərazidə sahibsiz qalmış şübhəli əşyaların zərərsizləşdirilməsi, partlamamış hərbi sursatlarınpartlayıcı maddələrin və minaların aşkar olunaraq təhlükəsiz hala gətirilməsi və ya partladılmasıdır. Eləcə də dövlət əhəmiyyətli tədbirlərin keçirildiyi əraziyə daxil olan avtomobillərdə axtarışlar aparılaraq naməlum əşyaların, partlayıcı maddələrin aşkar edilməsi də istehkam yarımqrupunun qarşısında duran tapşırıqlardandır.

Baş çavuş K.Kərimov qoyulan tapşırıqların keyfiyyətlə icra edilməsi məqsədilə hərbi hissə komandirinin təsdiq etdiyi müvafiq plana əsasən, şəxsi heyətlə mütəmadi olaraq məşğələlərin keçirildiyini vurğuladı. Dedi ki, hər həftənin şənbə günü hərbi hissənin mühəndis və kimya xidməti rəisi baş leytenant Kamran Zalov tərəfindən ixtisas hazırlığı üzrə nəzəri və praktiki məşğələlər təşkil olunur. Bundan əlavə, yarımqrupun şəxsi heyəti həftənin digər günlərində ərazidə minaların axtarılması, tapılması, minaların əraziyə döşənməsi, minalı ərazidən keçidlərin açılması, avtomobillərin yoxlanılması və şübhəli bilinən bağlamalara təhlükəsizlik qaydalarına əməl edilərək yaxınlaşma, səyyar mina-axtaran cihazlarla işləmə qaydasının öyrədilməsi və başqa mövzularda məşğələlərə cəlb olunur.

Bundan əlavə, istehkamçıların döyüş hazırlığı ayda iki dəfə hərbi hissə komandiri və iki dəfə xüsusi təyinatlı dəstənin komandiri tərəfindən yoxlanılır: "İstehkamçıların peşə vərdişlərinin təkmilləşdirilməsi hər zaman diqqətdə saxlanılır. Bunun üçün hərbi qulluqçularımız mütəmadi olaraq müxtəlif kurslara cəlb olunurlar. Deyə bilərəm ki, yarımqrupun bütün şəxsi heyəti ANAMA-nın təşkil etdiyi kurslarda müvəffəqiyyətlə iştirak edib və onlara sertifikatlar təqdim olunub".

O, yarımqrupun xidməti fəaliyyətilə fərqlənən və vəzifələrinin öhdəsindən layiqincə gələrək qarşıya qoyulan tapşırıqları vaxtında və keyfiyyətlə icra edən hərbi qulluqçularından baş çavuşlar Samir Quliyevin, Tahir Əliyevin, İlqar Əhmədovun və çavuş İbrahim Kutlasovun adlarını çəkdi.

baş leytenant
Xədicə Hacızadə

Şəhidlərimiz

Beş qardaşdan biri idi, döyüşlərdə neçə-neçə mərdin etibarlı silahdaşı oldu...

Ruhu ildırımda, şimşəklərdədir,
Qarabağdan əsən küləklərdədir...

Şair İlham İdrisoğluna məxsus bu misralar şəhidlərimiz haqqındadır. İllərdir şəhidlərimizin ruhu rahatlıq tapmır. Onların bir qisminin məzarı işğal olunmuş yurdlarımızda qalıb. Torpağa tapşırılmayan, son mənzil yeri bilinməyən şəhidlərimiz də var. Ziyarət etdiyimiz şəhid qəbirlərinin önündə onların xatirəsini anarkən, xalqımızın belə qeyrətli oğullar yetişdirməsinə görə qəlbimizi qürur hissi bürüyür. "Sizin qanınız tökülən torpaqlarımızı düşmən tapdağından azad edəcəyik" andımızı da bizə xatırladır şəhid məzarları. Şəhidlərimizin şərəfli döyüş yolu örnəkləri onların davamçılarına mənəvi güc verib, bu gün də Vətən naminə fədakarlığa ruhlandırır.

Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının 1992-1994-cü illərdə respublikamızın ərazi bütövlüyü uğrunda gedən döyüşlərdə şəhid olmuş hərbi qulluqçularının siyahısında 93-cü sıra nömrəsi ilə adı qeyd edilən çavuş Cabbarov Murad Soltan oğludur. O, 7 aprel 1974-cü ildə Bərdə rayonunun Kətəlparaq kəndində dünyaya göz açıb. Soltan Cabbarov və Qəmər Cabbarovanın qurduğu ailədə 5 oğul övladı dünyaya gəlib. Ailənin ikinci övladı olan Murad digər qardaşları kimi, valideynlərindən və müəllimlərindən milli ruhda tərbiyə alıb, ləyaqətli gənc kimi el-oba arasında hörmət qazanıb. Murad həyatda arzulara və diləklərə bağlı olan bir addır. Valideynləri öz dünyagörüşü, yaşıdları arasında nüfuzu ilə seçilən Muradın gələcəyi üçün xoş arzu və diləklərin həyata keçməsi niyyəti ilə dualar ediblər. Ata-ana xeyir-duası övladların həyatında bir nur kimi dərin iz qoyur, müsbət mənəvi keyfiyyətlərin aşılanmasına təkan verir.

Kətəlparaq kəndindəki orta məktəbin məzunu olan Murad musiqiyə də maraq göstərib, tarda və gitarada ifa edib. Musiqi məktəbində yiyələndiyi biliklərdən əlavə, bu sahədə çalışqanlığı və bacarığı onun istedadının, yaradıcı ruha malik olmasının təzahürü idi. Qarabağ bölgəsi tarixən bəstəkarları, musiqiçiləri və xanəndələri ilə şöhrət qazanıb. Bu diyar milli musiqimizin beşiyi sayılır. Murad da əslən bu bölgədən olan peşəkar musiqiçilərin ifasını valehliklə dinləyib, onlarla fəxr edib. Əcəl imkan versəydi, o da belə musiqiçilərdən biri ola bilərdi... Cabbarovlar ailəsində Muradın musiqi alətləri dəyərli yadigarlar kimi qorunub saxlanılır.

1992-ci ilin aprel ayında 18 yaşının tamam olması ərəfəsində M.Cabbarov Bərdə rayonunda təşkil olunan, könüllülərdən ibarət tabora üzv yazılıb. Sonra isə Bərdə Rayon Hərbi Komissarlığı tərəfindən (hazırda Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Bərdə Rayon Şöbəsi - Y.A.) müddətli həqiqi hərbi xidmətə çağırılaraq Daxili Qoşunların sıralarına göndərilib.

Həmin dövrdə respublikamızın Dağlıq Qarabağ və Ermənistanla həmsərhəd bölgələrində işğalçı düşmənlə döyüşlər gedir, şəhər və kəndlərimiz ermənilərin hərbi təcavüzünə məruz qalırdı. 1992-ci il fevralın 26-da Xocalıda soydaşlarımıza qarşı dəhşətli soyqırım törədilmişdi. Minlərlə həmvətənimizin öz torpağında məcburi köçkün vəziyyətinə düşməsi də vəziyyətin nə kimi fəlakətli həddə çatdığını göstərirdi.

1991-ci ilin dekabr ayında formalaşmasının təməli qoyulan Azərbaycanın Daxili Qoşunları 1992-ci ilin mart ayının 12-dən etibarən erməni işğalçılarına qarşı döyüşə başlamışdı.

M.Cabbarov o vaxt Daxili Qoşunların tərkibində olan 6500 saylı hərbi hissənin (1993-cü ilin yanvar ayından Ədliyyə Nazirliyinin Penitensiar Xidmətinin tabeliyinə verilib - Y.A.) sıralarına qəbul olunub. Burada hərbi andı qəbul edib. Hərbi xidmətdə özünü bacarıqlı və məsuliyyətli hərbi qulluqçu kimi göstərərək, "çavuş" rütbəsinədək yüksəlib. Cəzaçəkmə müəssisələrinin mühafizəsi vəzifəsini yerinə yetirən hərbi hissədə komandanlıq tərəfindən qarşısına qoyulan tapşırıqları vicdanla yerinə yetirib.

Daxili Qoşunların digər hərbi hissələri kimi, həmin dövrdə 6500 saylı hərbi hissədən də ön cəbhəyə torpaqlarımızın müdafiəsinə müntəzəm olaraq şəxsi heyət göndərilirdi. Çavuş M.Cabbarov da döyüşə gedənlərin sıralarında olmaq üçün bir neçə dəfə komandirlərə müraciət edib. Nəhayət, hərbi hissədən Tərtər-Ağdərə bölgəsinə göndərilən dəstələrdən birinin tərkibində döyüş zonasına qədəm basıb. Göstərilən istiqamət üzrə düşmənlə təmas xəttində erməni təcavüzkarlarına qarşı qətiyyətlə vuruşaraq, yaşayış məntəqələrimizin müdafiəsində mətinliklə dayanıb. Bununla yanaşı, Ağdərə ön cəbhə zonasında bir sıra yüksəkliklərin və kəndlərin işğaldan azad edilməsi uğrunda döyüşlərdə cəsurluq nümunəsi göstərib. O, son nəfəsinədək hərbi anda sadiq qalıb.

Ailəsinin verdiyi məlumata görə, Murad 09.08.1992-ci ildə döyüşdə həlak olduqdan sonra meyiti günlər sonra götürülüb. Hərbi qulluqçumuz ağır güllə yarasından həlak olub.

Daxili Qoşunların Arxivindən verilən 21.06.2019-cu il tarixli arayışda çavuş M.Cabbarovun 27.06.1992-ci ildə Ağdərədə həlak olduğu qeyd edilib.

Bakı şəhəri Nizami rayonunun Vətəndaşlıq Vəziyyəti Aktlarının Qeydiyyatı Şöbəsi tərəfindən 1992-ci ildə tərtib olunan ölüm haqqında şəhadətnamədə isə hərbi qulluqçumuzun ölüm tarixi 09.08.1992-ci il göstərilib.

Sənədlərdə bu uyğunsuzluq müharibə dövrünə aid bir sıra faktların dəqiqləşdirilməsinin, təsdiq edilməsinin çətinlikləri ilə bağlıdır. Müharibədə bəzən hərbi qulluqçunun həlak olduğu gün əvəzinə, meyitinin döyüş meydanında tapılaraq götürüldüyü və ya qəbiristanlıqda torpağa tapşırıldığı gün sənədlərdə öz əksini tapıb. Həmçinin, yanlış məlumata istinad olunması və yaxud sənədlər hazırlanarkən texniki səhvə yol verilməsi bu qüsurların səbəbləri arasındadır.

Şəhid hərbi qulluqçumuz Kətəlparaq kəndinin qəbiristanlığında dəfn olunub.

Daxili Qoşunların Baş İdarəsindən Cabbarovlar ailəsinə göndərilmiş 27.11.1992-ci il tarixli məktubda çavuş M.Cabbarovun respublikamızın müdafiəsi uğrunda döyüşlərdə şəxsi şücaət göstərdiyinə görə ölümündən sonra Azərbaycan Respublikası Prezidentinin 19.11.1992-ci il tarixli Fərmanı ilə Azərbaycan Respublikasının "Fəxri fərman"ına layiq görüldüyü barədə məlumat verilib.

2005-ci ildə işıq üzü görən, M.Seyidovun müəllifi olduğu "Bərdə şəhidləri" kitabında şəhidin döyüş yolundan bəhs olunur.

Şəhidin valideynləri vəfat ediblər. Hazırda Cabbarov soyadını daşıyan dörd qardaş ayrı-ayrı illərdə müxtəlif qoşun növlərində hərbi xidmət keçib. Muradın qardaşlarından biri Daxili Qoşunların 67987 saylı hərbi hissəsinin əsgəri olub. Onların hər birinin öz ailəsi var. Muradın xatirəsi bu ailələrdə daim uca tutulur, elin yaddaşında da şəhid unudulmayıb, adı dərin ehtiramla anılır.

Bərdədən işğal altındakı torpaqlarımıza məsafəcə qısa yol var. Qarabağ həsrətinə son qoyaraq, düşmənin kəsdiyi yolları Azərbaycan əsgəri açacaq və qarşısındakı bütün sədləri də keçəcəkdir! O yurdlarımızda yenidən üçrəngli bayrağımız dalğalanacaqdır! Necə ki, Murad kimi şəhidlərimiz bu müqəddəs missiyanı yerinə yetirmək üçün öz həyatlarını qurban veriblər.

Allah bütün şəhidlərimizə rəhmət eləsin!

Yalçın Abbasov

P.S. Məqalənin hazırlanması üçün sənədlərin toplanması və fotoların çəkilməsində göstərdiyi köməkliyə görə şəhidin qardaşı oğlu Bəhruz Cabbarova təşəkkürümüzü bildiririk.

4_Layout 1 29.06.2020 12:06 Page 1

QOYULAN TAPŞIRIQ VƏ TƏLƏBLƏR MƏSULİYYƏTLƏ YERİNƏ YETİRİLİR

Hərbi qulluqçular tərəfindən hərbi geyim formasının düzgün daşınması onların hərbi intizamını və nümunəvi xidmətini şərtləndirən əsas amillərdəndir. Daxili Qoşunların hərbi qulluqçularının bədən ölçülərinə uyğun, keyfiyyətli geyim və əşya əmlakları ilə vaxtında təmin olunması Daxili Qoşunlar komandanlığının diqqət mərkəzində saxladığı əsas məsələlərdən biridir. 17071 saylı hərbi hissənin əşya xidməti də maddi-texniki təminat üzrə vəzifələrinin öhdəsindən layiqincə gəlir, qarşıya qoyulmuş tapşırıqları vaxtında və düzgün icra edir.

Əşya xidmətinin rəisi kapitan İlham Mənəfov da məsuliyyətli, peşəkar, təcrübəli zabit kimi hərbi hissə komandanlığının qarşıya qoyduğu tapşırıqlara məsuliyyətlə yanaşır, öz işini rəhbər sənədlərin tələbləri əsasında qurur. Hərbi hissənin əşya anbarının işinə rəhbərlik edir, ləvazimatların saz olmasını və düzgün istismarını nəzarətdə saxlayır. Əmlakların bölmələrə verildiyi vaxt möhürlənməsini, avadanlığın, əşya və təsərrüfat əmlakının düzgün istifadə olunmasını, habelə təmirini təşkil edir.

O, 25031, 99713 saylı hərbi hissələrdə müxtəlif vəzifələrdə xidmət edib. 2017-ci

ilin noyabr ayından hazırkı vəzifədədir.

Kapitan İ.Mənəfovla söhbət zamanı bildirdi ki, şəxsi heyətin geyim təminatının lazımi səviyyədə həyata keçirilməsinə aidiyyəti vəzifəli məsul şəxslər cavabdehlik daşıyırlar. Bu baxımdan hərbi hissənin əşya xidmətinin də üzərinə bir sıra mühüm vəzifələr düşür: "Əsas diqqət yetirilən məqamlardan biri hərbi qulluqçuların geyim əmlakları ilə təminatı zamanı hərbi geyimin fərdi qaydada uyğunlaşdırılmasıdır. Bundan əlavə, ayda bir dəfədən az olmayaraq, hərbi hissənin uçot göstəricilərinə görə bölmələrdə və hissənin anbarında olan əşya və təsərrüfat əmlakının miqdarı, vəziyyəti, kateqoriyası, komplektliyi və onların qorunub saxlanılma şəraiti yoxlanılır. Sözsüz ki, görülən işlər zamanı yanğına qarşı təhlükəsizlik tədbirləri, daxili qaydalara ciddi riayət olunması da nəzarətdə saxlanılır".

Kapitan İ.Mənəfov hərbi qulluqçuların əşya əmlakları ilə təminatının şəxsi heyətin siyahı sayına uyğun olaraq tərtib olunan müvafiq hesabat-sifarişlərə əsasən həyata keçirildiyini dedi: "Hərbi hissənin əşya əmlakları ilə təminatı müvafiq olaraq ildə 2 dəfə - yay və qış planı üzrə həyata keçirilir. Müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları isə geyim və yataq əmlakları ilə normaya uyğun olaraq təmin olunurlar".

Xidmət rəisi onu da vurğuladı ki, geyimlərin fərdi qaydada bədən ölçülərinə uyğunlaşdırılması, sanitar təmizlənmə, həmçinin, bölmələrdə və anbarda əşya, təsərrüfat ləvazimatlarından və mədəni-maarif vasitələrindən düzgün istifadə olunması, onların qorunub saxlanılması və uçotunun aparılması daim nəzarətdədir.

O, xidmətin təşkilində kargüzar çavuş Fidan Sadəttinlinin fəaliyyətini də müsbət qiymətləndirdi. Bildirdi ki, çavuş F.Sadəttinli xidməti vəzifələrin öhdəsindən layiqincə gəlir, ona verilən bütün tapşırıqları, sənədlərin qəbulu, dövriyyəsi işini məsuliyyət və keyfiyyətlə yerinə yetirir.

Yeri gəlmişkən qeyd edək ki, camaşırxanada geyimlərin təmizlənməsi, qurudulması, ütülənməsi müasir standartlara uyğun avadanlıqlarla həyata keçirilir. Xidmət rəisi nümunəvi hərbi qulluqçulardan əşya anbarının rəisi baş çavuş Elnur Qədirov, hamam-camaşırxana rəisi çavuş Tural Ramazanov, həmçinin, camaşırçılar Olmaz Qasımova, Şəfəq Qasımova və Nargilə Tahirlinin adlarını da çəkməyi unutmadı.

baş leytenant Xədicə Hacızadə

DÖYÜŞ TAPŞIRIĞININ UĞURLA İCRASINDA RABİTƏÇİLƏRİN ROLU ƏVƏZOLUNMAZDIR





67987 saylı hərbi hissənin intizamı, nümunəvi xidmətilə seçilən hərbi qulluqçularından olan əsgərlər Nicat İslamlı və Sərvan Həsənzadə müddətli həqiqi hərbi xidmətdədirlər. Hərbi hissənin rabitə xidmətinin rəisi mayor Şahin Quliyev tərəfindən müsbət xarakterizə olunan hər iki əsgərimiz qısa zamanda digər hərbi qulluqçulara nümunə olmağı bacarıb.

Əsgər N.İslamlı 2000-ci il sentyabrın 19-da Tərtər rayonunda dünyaya gəlib. Tərtər rayon 1 nömrəli tam orta məktəbinin 11-ci sinfini 2017-ci ildə bitirərək Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasına daxil olub. 2020-ci ilin yanvar ayından hərbi xidmətdədir. Hazırda rabitə taqımında radiotelefonçudur. O, daim öz üzərində çalışır, özünə qarşı tələbkardır. Xidmətə ciddi münasibətilə seçilir. Hərbi xidmətə həvəsi, əzmkarlığı ilə yanaşı, lazım olduqda əsgər yoldaşlarına da köməklik göstərməsi onun müsbət xüsusiyyətlərindəndir.

N.İslamlı uşaq yaşlarından idmanın boks növü ilə məşğul olub. İki dəfə respublika çempionu adını qazanıb, dəfələrlə regionlardakı yarışlarda 1-ci yerə layiq görülüb.

Hərbçi ləyaqətini hər şeydən üstün tutan əsgərimizin ən böyük arzusu müddətdən artıq həqiqi hərbi xidmətə qəbul olunaraq, həyatını, bütün bilik və bacarığını Vətənə xidmətə həsr etməkdir.

Hərbi hissənin daha bir intizamlı əsgəri Sərvan Həsənzadədir. O, 1996-cı il iyulun 19-da Bərdə rayonunun Mollalı kəndində anadan olub. 2013-cü ildə N.Quliyev adına tam orta məktəbi bitirib. Elə həmin il Azərbaycan Dövlət İqtisad Universitetinin Kommersiya fakültəsinə daxil olub. 2017-ci ildə universiteti bitirərək Azərbaycan Turizm və Menecment Universitetində Turizmdə nəqliyyat xidmətləri ixtisası üzrə magistr pilləsində təhsilini davam etdirib. 2019-cu ilin iyul ayında magistr təhsilini də bitirib və müddətli həqiqi hərbi xidmətə başlayıb. O, rabitə taqımında atıcıdır. Sərvan gələcəkdə ixtisası üzrə özünü daha da təkmilləşdirərək seçdiyi yolda birinci olmağı, bu sahədə öz töhfəsini verməyi qarşısına məqsəd qoyub.

Üzərinə düşən vəzifələrin məsuliyyətini dərk edən əsgər S.Həsənzadə hərbi hissə komandanlığı tərəfindən müsbət xarakterizə olunur. İstənilən vaxtda verilən tapşırıqların icrasında sayıqlıq göstərir, dərhal onları keyfiyyətlə yerinə yetirməyə çalışır. Asudə vaxtlarını boşa sərf etməyən əsgərimiz bədii ədəbiyyat oxumağı çox sevir.

Biz də nümunəvi hərbi qulluqçularımıza xidmətlərində nailiyyətlər arzulayır, uğurlarının davamlı olmasını diləyirik.

67987 saylı hərbi hissənin ştatdankənar müxbir postu

AĞ ÖLÜM - NARKOMANİYA

Müasir dövrümüzdə cəmiyyəti düşündürən və narahat edən ən dəhşətli problemlərdən biri də narkomaniyadır. Narkotik insanın iradəsini iflic edir. Dünya ictimaiyyətinin səylərinə baxmayaraq, hələ də narkomaniya bəlası ilə mübarizə aparmaq üçün səmərəli yollar aşkar etmək və narkomanların sayını azaltmaq mümkün olmayıb.

Narkomaniya ilə mübarizə uzunmüddətli, çoxşaxəli, külli miqdarda pul vəsaiti tələb edən bir prosesdir. Bu problemin ictimai təhlükəli olması isə ondan ibarətdir ki, bu cinayət həmişə gizli şəraitdə baş verir, nəzarətdən kənarda qalır və günü-gündən artır.

Narkotik vasitələrdən istifadə ailələrin dağılmasına, cinayətkarlığın artmasına, cəmiyyətdə ən böyük bəlalardan olan QİÇS (Qanda İmmun Çatışmazlığı Sindromu) xəstəliyinə gətirib çıxarır. Narkotik vasitələr insanlarda asılılıq yaratdığı üçün narkotikin vaxtı çatdıqda o mütləq qəbul edilməlidir. Narkomanın isə narkotik vasitəni almağa pulu olmadıqda o, hər cür vasitəyə, yəni oğurluğa, adam öldürməyə və digər cinayətlərə əl ata bilər.

Bəşəriyyəti düşündürən bu bəla ilə mübarizə sahəsində Azərbaycan Respublikasında da məqsədyönlü işlər aparılır.

Azərbaycan Respublikası Prezidentinin

22 iyul 2019-cu il tarixli Sərəncamı ilə "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair 2019-2024-cü illər üçün Dövlət Proqramı" təsdiq edilib.

Dövlət Proqramından irəli gələn məsələlərin həyata keçirilməsi məqsədilə Daxili Qoşunlarda Azərbaycan Respublikasının Daxili İşlər naziri tərəfindən təsdiq edilmiş 16.08.2019-cu il tarixli tədbirlər planının müvafiq bəndlərinin vaxtlı-vaxtında icrası təmin olunur.

Şəxsi heyət arasında narkomanlığın cəmiyyətə və insan sağlamlığına ziyanı barədə təbliğat işinin gücləndirilməsi məqsədilə bütün dərəcəli hərbi qulluqçularla hər rüb əlavə məşğələ planlaşdırılıb keçirilir.

Bundan əlavə, Daxili Qoşunların hərbi hissələrinin yerləşdiyi şəhər və rayonlarda hərbi qulluqçular arasında sağlam həyat tərzinin təbliğ olunması məqsədilə səhiyyə, o cümlədən, daxili işlər orqanlarının əməkdaşları ilə görüşlər təşkil olunur, izahedici söhbətlər aparılır.

Bununla yanaşı, hərbi qulluqçuların sağlamlığının qorunmasına xidmət edən maarifləndirmə işlərinin genişləndirilməsi üçün mütəmadi olaraq Daxili Qoşunların Tibb xidmətinin həkim hərbi qulluqçuları tərəfindən hərbi hissələrdə tibbi profilaktiki işlər görülür.

Bəşəriyyətin dəhşətli bəlası olan narkomaniya ilə mübarizə nəinki dövlətin, həmçinin, bu dövlətdə yaşayan hər bir vətəndaşın borcudur.

Mətbuat xidməti

HƏRBİ XƏBƏRLƏR - YENİLİKLƏR -

Portuqaliya xüsusi təyinatlıları "Urovesa" istehsalı taktiki nəqliyyat vasitələri əldə edəcək

Portuqaliya Ordusunun xüsusi təyinatlı bölmələri 4x4 təkər formuluna malik "VAMTAC ST5" xüsusi əməliyyat

maşınları almağı planlaşdırır. Ordu.az xarici KİV-ə istinadən xəbər verir ki, ordu 12 ədəd maşını bu il əldə etmək niyyətindədir.

"Urovesa" tərəfindən istehsal olunan maşınlar iki versiyada mövcud olacaq. Maşınların maksimal seyr məsafəsi 600 km-dir, sürəti 135 km/saata çata bilər.

Cənubi Koreya Xüsusi Müharibə Komandanlığının silahlarını dəyişdirməyi düşünür

Cənubi Koreyanın Müdafiə Satınalmaları İdarəsi (DAPA) ölkənin Silahlı Qüvvələri Xüsusi Müharibə Komandanlığının hazırda istifadə etdiyi 5.56 mm çaplı "S&T Motiv" K1A silahlarını əvəz edəcək silahın hazırlanması üçün yerli "Dasan Machineries" silah istehsalçısı ilə razılaşma əldə edib. Ordu.az "Janes"

nəşrinə istinadən xəbər verir ki, müqavilənin dəyəri 3.3 milyon ABŞ dollarıdır.

Bildirilir ki, ilkin olaraq silahlardan 1000 ədəd alınacaq və qiymətləndirmə yaxşı olsa, alınan silahların sayı 15000-ə qədər artırılacaq.

Həkim məsləhəti

GÜN ƏRZİNDƏ 250 MİLLİQRAM MEYVƏ ŞİRƏSİNİN QƏBUL EDİLMƏSİ MƏSLƏHƏTDİR

Tərkibi vitamin və mikroelementlərlə zəngin olan meyvə şirələri orqanizm üçün çox faydalıdır. Şirələr həm təbii, həm də qablaşdırılmış formada hazırlanır.

Ev şəraitində meyvə şirələri hazırlayarkən məhsulun orqanikliyinə, çürük və çatlaq olmamasına fikir vermək lazımdır. Meyvələr axar su altında tərtəmiz yuyulandan sonra şirəçəkən maşında çəkilməlidir. Çəkiləndən sonra 10 dəqiqə ərzində içmək məsləhətdir, çünki meyvə şirələri çəkiləndən sonra 2-3 saat qalanda tərkibi dəyişir və faydası qalmır.

Dietoloqlar alma, portağal və qreypfrutdan alınan şirələrin daha faydalı olduğunu bildirirlər. Həkim-dietoloq Ləman Süleymanova bu barədə **AZƏRTAC**-a deyib: "Portağal şirəsi C vitamini ilə zəngindir və antioksidant xüsusiyyətə malikdir. Tərkibində kalium və maqnezium olduğuna görə ürək xəstələri üçün xeyirlidir. Qreypfrut şirəsi antioksidant olmaqla yanaşı, yağyandırıcı xüsusiyyətə malikdir. Nar şirəsi isə daha çox faydalı antioksidant

sayılır. Onun 1 stəkanı 4 stəkan zoğal şirəsinə və 10 stəkan yaşıl çayın tərkibində olan antioksidanta bərabərdir. Gün ərzində 250 milliqram qəbul edilməsi orqanizm üçün yetərlidir".

Təbii meyvə şirəsinin faydası ilə yanaşı, bəzi əks təsiri də var. Fruktoza ilə zəngin olduğuna görə meyvə şirəsini şəkərli diabet xəstələrinin qəbul etməsi məsləhət görülmür.

Allah rəhmət eləsin

Daxili Qoşunların komandanlığı və Veteranlar şurası istefada olan general-mayor Şirin Xəlilova **qardaşının** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Daxili Qoşunların Veteranlar şurası **ehtiyatda olan polkovnik-leytenant Oqtay Ahnəzərovun** vəfatından kədərləndiyini bildirir və ailəsinə dərin hüznlə başsağlığı verir.

Daxili Qoşunların Veteranlar şurası **ehtiyatda olan çavuş Dünyamin Hacıyevin** vəfatından kədərləndiyini bildirir və ailəsinə dərin hüznlə başsağlığı verir.

67987 saylı hərbi hissənin komandanlığı çavuş Ümid Əliyevə **anasının** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

TƏSİSÇİ:
Azərbaycan Respublikası DİN Daxili Qoşunların Baş İdarəsi.
Redaktor: Anar Əhmədov

REDAKSİYANIN ÜNVANI:
AZ 1130, Bakı şəhəri, Q. Musabəyov küç. 4, Daxili Qoşunların Baş İdarəsi.
Əlaqə telefonları: 560-22-63

Qəzet ayda 2 dəfə nəşr olunur. "Əsgər" qəzetinin redaksiyasında yığılıb səhifələnmiş və DİN-in mətbəəsində hazır elektron variantdan çap olunmuşdur.

Şəhadətnamə 3565
Sayı 3000